**PRESS-RELİZ**

**Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək.**

20-21 may 2025-ci il tarixlərində Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək.

Macarıstanın Baş naziri Viktor Orbanın ev sahibliyi edəcəyi Sammitdə TDT-yə üzv dövlətlərin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın prezidentləri iştirak edəcəklər. Bundan əlavə, TDT Müşahidəçi Ölkələrinin nümayəndələri və Təşkilatın Baş Katibi də Zirvədə iştirak edəcək.

Bu Zirvə, TDT tarixində ilk dəfə Müşahidəçi Dövlət tərəfindən keçiriləcək və Macarıstanın türk dövlətləri ilə hərtərəfli əməkdaşlığın qətiyyətlə dərinləşdirilməsində artan rolunu vurğulayır.

"Şərq və Qərbin görüş nöqtəsi" mövzusu altında keçiriləcək Qeyri-rəsmi Zirvə görüşü dövlət başçılarına prioritet sahələrdə əməkdaşlığı inkişaf etdirmək, regional və qlobal miqyasda ümumi məsələləri həll etmək üçün mühüm imkan yaradacaq.

Zirvə görüşünün sonunda Türk Dövlətləri Təşkilatının ortaq baxışını və strateji oriyentasiyasını təsdiq edən **Budapeşt Bəyannaməsi**nin qəbul edilməsi, müxtəlif mühüm qərarların və təşəbbüslərin ictimaiyyətlə paylaşılması nəzərdə tutulur.

Qeyri-rəsmi Sammitdən əvvəl **TDT Xarici İşlər Nazirləri Şurası** Zirvənin gündəliyini və təsdiq üçün dövlət başçılarına təqdim olunacaq sənədləri yekunlaşdırmaq üçün Budapeştdə toplanacaq.

**Türk Dövlətləri Təşkilatının Katibliyi**